**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN AİLƏSİNDƏ YARANAN ZİDDİYYƏTLƏRİN SOSİAL - PSİXOLOJİ CƏHƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 6114.01 – Sosial psixologiya |
| Elm sahəsi: | Psixologiya |
| İddiaçı: | **Şəfiqə Şəmsəddin qızı Rzayeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun Sosial psixologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Fəlsəfə elmləri doktoru, professor
**Rəfiqə Cəlil qızı Əzimova**

Rəsmi opponentlər: Psixologiya elmləri doktoru, professor
**Ramiz İbrahim oğlu Əliyev**
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Əzim Əli oğlu Əliyev**
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Sevər Sərvət qızı Mirzəyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________
Psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: ____________
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: ____________
Psixologiya elmləri doktoru, professor
**Elnarə İbrahim qızı Şəfiyeva**

BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"26" 09 2024

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan ailəsi uzunömürlülüyü və möhkəmliyi ilə dünyada ən yaxşı ailə modellərindən biri hesab olunur. Cəmiyyətin, dövlətin inkişafı həm də ailələrin inkişafından xeyli dərəcədə asılıdır. Güclü ailə güclü dövlət deməkdir. Çünki ailə cəmiyyətin aparıcı qüvvəsi olan vətəndaşlar yetişdirir, milli – mənəvi dəyərlər sistemini formalaşdırır, sosial – psixoloji münasibətlərin tənzimləyicisi rolunda çıxış edir. Ailə həm sosial mikrosistem, həm də öz vəzifə və funksiyalarına görə faktiki olaraq mikromühit çərçivəsində mikro dövlətdir. Ailəni obrazlı şəkildə həm də "kiçik dövlət" adlandırırlar. Ailə həmçinin istər şəxsiyyət, istərsə də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, mədəni irsin, əxlaqi norma və qaydaların nəsildən – nəsilə ötürücüsü rolunu oynayır. Hər bir insanın mənəvi keyfiyyətləri - əxlaq, mənəviyyat, vətənpərvərlik, ədalətlilik, vicdanlılıq, xeyirxahlıq və s. bu kimi mühüm dəyərləri, davranışının ilkin formaları məhz ailədə formalaşır. Ailə həm də cəmiyyətdə formalaşmış ən qədim sosial institutlardan biridir.

Sosial institutların inkişafının cəmiyyətin yaşam tərzinə, davranışına və gələcək inkişafının stabilliyinə təsiri və rolu əvəzsizdir. Çünki sosial institutlar cəmiyyətdə müəyyən qayda – qanunlar yaradır, insanların davranışlarını tənzimləyir, həmçinin insanların və dövlət qurumlarının bir – biri ilə əlaqə yaratmasına və birgə öz vəzifələrini yerinə yetirməsinə xidmət edir. Sosial institutların müxtəlif tipləri vardır ki, onlardan biri də ailə institutudur.

Ailə İnstitutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclənməsinə, inkişaf etməsinə zəmin yaradır. Ölkəmizdə ailə institutunun inkişafına diqqət dövlət müstəqilliyimizi əldə etdikdən sonra daha da artırılmış və bu sahədə mühüm tədbirlər həyata keçirilmiş və keçirilməkdədir.

Ailənin sosial institut kimi aparıcı, vacib rolunun yüksək qiymətləndilrməsində, azərbaycançılıq təfəkkür tərzinin formalaşmasında Ulu öndər Heydər Əliyevin rolu əvəzsizdir. O, ailəyə böyük önəm və dəyər vermişdir. Ailə, xüsusi mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq,

şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır.

Dövlətimiz ailə siyasətinin dəstəklənməsi istiqamətində ailə institutunun təbliği, milli-mənəvi dəyərlərin gənc nəslə aşılanması, həmçinin gənclərin cəmiyyətdə fəallığının artırılması məqsədilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bələdiyyə orqanları ilə birgə müxtəlif layihələr həyata keçirir: "Qadın əleyhinə zorakılığın dayandırılması", "Ailədaxili münasibətlərdə milli – mənəvi dəyərlər və bu münasibətlərin gələcək nəslin (uşaqların) formalaşmasında əhəmiyyəti", "Müasirləşmənin ailəyə təsiri və rolu". "Nəsillərarası əlaqələr – ailədə milli dəyərlər", "Ailə dəyərlərimiz, ənənələrimiz", "Sağlam ailə sağlam gələcəyin təminatıdır", "Bizim gücümüz birliyimizdədir", "Müasir ailənin cəmiyyətin inkişafında yeri və rolu", "Yaşlı nəslin təcrübəsindən faydalanaq", "Ailə, məktəb, cəmiyyət", "Sağlam həyat naminə erkən nikaha yox deyək", "Ailə Akademiyası" və s.

Ailə institunun formalaşdırılması və inkişaf etdirilməsində respublikamızın birinci vitse prezidenti, UNESCO və İSESCO – nun xoşməramlı səfiri Mehriban Əliyevanın böyük rolu vardır. Heydər Əliyev Fondu tərəfindən müasir Azərbaycan ailəsinin daha möhkəm və sağlam əsaslar üzərində qurulması, həmçinin onun firavanlığının təmin olunması məqsədilə bir sıra uğurlu layihələr həyata keçirilmişdir. Heydər Əliyev Fondu həmçinin xeyriyyə məqsədilə aztəminatlı ailələrə daima yardım göstərir. Təkcə 2020-ci ildə mövcud Covid – 19 pandemiyası ilə əlaqədar fond yüz mindən çox ailəyə yardım etmişdir.

Bütün bunlara əsaslanaraq qeyd edə bilərik ki, ölkəmizdə daima ailə institutunun inkişafına dəstək, milli – mənəvi dəyərlərimizin yaşadılmasına qayğı mövcuddur.

Beləliklə, bir tərəfdən qloballaşan və müasirləşən zəmanənin tələblərini dərk etmək, digər tərəfdən isə müstəqil Azərbaycanın milli – mənəvi dəyərlərinə söykənmək və bir sosial institut kimi ailənin müasir cəmiyyətdə öz mövqeyini qorumaq və funksiyalarını yerinə yetirmək potensialı, cəmiyyətin milli – mənəvi, əxlaqi dəyərlərinin qorunması, gələcək nəslə ötürülməsi bu gün mühüm

məsələlərdəndir. Burada yaranan bəzi ziddiyyətlər və problemləri araşdırmaq mövzunun əsasında dayanır.

Ailədaxili münasibətlərin formalaşması mexanizmlərini, qanunauyğunluqlarını araşdırmaq, ailədaxili ziddiyyətlərin səbəblərini müəyyənləşdirmək, həm sağlam ailə münasibətlərinin və mühitinin yaradılması, həm də psixoloji xidmət işinin təşkili, xüsusilə də ailəyə xidmət çərçivəsində psixoprofilaktika, psixokorreksiya və psixoterapiya işi günümüzün aktual problemlərindəndir. Buna görə də bu məsələlərin düzgün həll yolunun seçilməsi çox əhəmiyyətlidir.

Təsadüfi deyil ki, ailə fenomeni ilə bağlı çoxsaylı problemlər hər zaman dünyada və Azərbaycanda müxtəlif elm sahələrinin mütəxəssislərinin diqqət mərkəzindədir. Bu tədqiqatlarda ailə fenomeni, ailənin funksiyaları, ailə tərbiyəsi, ənənəvi və müasir ailələr, ailənin bir sosial institut kimi cəmiyyətdə rolu, əhəmiyyəti, ailədaxili münasibətlər, ailədaxili ziddiyyətlər, onların yaranma səbəbləri və s. bu kimi məsələlər öyrənilir və tədqiq edilir, həmçinin ailədaxili ziddiyyətlərin mənfi nəticələrinin qarşısının alınması üçün müvafiq profilaktik məlumatlar verilir, təklif və tövsiyələr irəli sürülür. Psixoloji istiqamətdə aparılmış tədqiqatlarda (Ə.Əlizadə, Ə.Bayramov, B.Əliyev, Ə.Qədirov, M.Həmzəyev, E.Quliyev, R.Əliyev, K.Əliyeva, E.Bəylərov, E.Şəfiyeva, R.Qədirova, Ə.Baxşəliyev, M.Topkara, İ.Ersevim, N.Tarhan, S.Yaylamaz, D. Cücəloğlu, A.Rean, T.Andreyeva, E.Belinskaya, T.Kozlov, N.Posısoyev, A.Voyskunskiy, L.Vıqotskiy, M.Enikeev, K.Horni, E.From, Z.Freyd, D.Mayers və b.) ailə institutu, funksiyaları, ailə tipləri, ailədaxili münasibətlər, ailədə valideyn-övlad münasibətləri, ailədə uşaqların tərbiyəsi və s. məsələlər araşdırılmış, ailənin formalaşmasının nəzəri və praktik müddəaları sistemləşdirilmişdir. Sosioloji və sosial-psixoloji yönümdə aparılmış tədqiqatlarda (R.Əzimova, F.Vahidov, T.Ağayeva, İ. Rüstəmov, F. Məmmədov, A.Antonov, V.Medkov, S.Burova, E.Belinskaya, Q.Osipov, İ.Kravçenko, D.Mayers, T.Parsons, K.Stolley və b.) şəxsiyyət anlayışı, fərdin şəxsiyyətə çevrilməsi, sosiallaşması, ailə ilə bağlı təsəvvürlərin qədim dövrlərdən indiyədək dəyişilmə dinamikası, müasir ailə, ailənin cəmiyyətdə yeri, cəmiyyətdə mövcud olan ste-

reotip və ənənələrin ailədaxili münasibətlərə təsiri və s. bu kimi problemlər tədqiq edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir Azərbaycan ailəsində yaranan ziddiyyətlərin öyrənilməsidir. Tədqiqatın predmetini müasir Azərbaycan ailəsində yaranan ziddiyyətlərin yaranmasına təsir göstərən sosial – psixoloji amilləri təhlil etmək təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müasir Azərbaycan ailəsində yaranan ziddiyyətli məsələlər, yadlaşmağa gətirən bəzi sosial – psixoloji problemlərin səbəblərini nəzəri – metodoloji və empirik yolla açıqlamaqdır.

Qarşıya qoyulmuş məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1. Ailədaxili münasibətlərlə bağlı tədqiqat işlərini psixoloji və sosial-psixoloji cəhətdən təhlil edib sistemləşdirmək;
2. Müasir Azərbaycan ailəsində milli mənəvi dəyərlər, adət - ənənələrin rolunun müəyyənləşdirilməsi və milli xüsusiyyətlərlə müasirliyin vəhdətinin ailədaxili münasibətlərə təsirinin öyrənilməsi;
3. Müasir Azərbaycan ailəsində yaranan ailədaxili ziddiyyətlərin səbəblərinin və bu zaman yaranan problemlərin sosial – psixoloji tərəflərinin öyrənilməsi;
4. İnformasiya Kommunikasiya Texnologiyaları cəmiyyətində virtual düşüncə tərzinin ailənin sosial – psixoloji mühitinə təsirinin araşdırılması;
5. Müasir Azərbaycan ailəsində yaranan ziddiyyətlərin səbəblərinin müəyyənləşdirilməsi və əlverişli ailə mühitinin yaradılması istiqamətində tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın əsas fərziyyəsi.** Müasir Azərbaycan ailəsində ziddiyyətlərin yaranmasına psixoloji, etnomədəni və sosiomədəni amillərlə yanaşı, ailə üzvlərinin (ər-arvad) təhsil səviyyəsi, adaptasiya prosesi, mövqe və rollarının qavranılmasında meydana çıxan problemlər əhəmiyyətli şəkildə təsir göstərir.

**Tədqiqat metodları.** Tədqiqatda ailə institutu, ailənin sosial - psixologiyası haqqında yerli və xarici ölkə tədqiqatçılarının əldə etdikləri elmi nəticələr, müddəalardan istifadə edilmişdir.

Tədqiqatda E. Dyuvall və R. Hillin “Ailənin həyat dövrü” nəzəriyyəsinə istinad edilmişdir. Müasir Azərabaycan ailəsində yaranan ziddiyyətlərin sosial – psixoloji cəhətləri bu günümüzdə aktual olan “ailənin həyat dövrü” nəzəriyyəsi - “sosial konstruktivizm” nəzəriyyəsinin kəsişməsində nəzəri və empirik şəkildə təhlil edilmiş və İKT cəmiyyətində virtual düşüncə tərzinin ailənin sosial- psixoloji mühitinə təsiri açıqlanmışdır. Dissertasiya işində aşağıdakı metodikalardan istifadə edilmişdir:

1. Anket sorğusu
2. Nikah münasibətlərinin diaqnostikası
3. “Qısqancsınızmı?” testi
4. Ailə asılılıq profil indeksi (Addiction Profile İndex Family – BAPİ-A)

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Ailədaxili münasibətlərdə ziddiyyətlərin yaranmasının məzmun və istiqaməti sosial psixoloji amillərin təsirinə məruz qalır ki, bu da ailədaxili münasibətlərdə ziddiyyətlərin yaranması dinamikasında öz əksini tapır.
- Bir neçə nəslin yaşadığı ailələrin streotip və yönümlərində , adət və ənənələrində mövcud olan fərqlər ailədaxili münasibətlərdə ziddiyyətlərin yaranmasına səbəb olmaqla bu münasibətlərə mənfi təsir göstərir.
- Ailədaxili münasibətlərdə yaranan psixoloji ziddiyyətlər və münaqişələr bu münasibətlərin inkişaf dinamikasında fərqli təzahürlərə malik olur.
- Ailədaxili ziddiyyətlərin meydana çıxması bir sıra psixoloji xüsusiyyətlərdən asılı cəhət kimi özünü büruzə verir. Bunlara temperament, xarakter, şəxsiyyət tiplərinin uyğunsuzluğu kimi psixoloji faktorları aid etmək olar.
- Ailədaxili ziddiyyətlərin yaranmasına həmçinin tərəflərin fərdi – psixoloji xüsusiyyətləri, təhsil səviyyəsi, ünsiyyət mədəniyyəti, yaş fərqləri, dünyagörüşü, mədəni yaş amili, ailə mühiti, kənar şəxslərin müdaxiləsi, sosial statusu, virtual düşüncənin təzahürləri də səbəb ola bilər;

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində ilk dəfə olaraq müasir dövrdə ailədaxili münasibətlərdə yaranan ziddiyyətlər so-

sial-psixoloji istiqamətdə sistemli şəkildə təhlil olunmuşdur. Xüsusən də müyyən edilmişdir ki, qısqanclıq internet resurslarından və sosial şəbəkələrdən uzun müddətli istifadə, maddi sıxıntı, kənar şəxslərin müdaxiləsi ailədaxili münasibətlərdə ziddiyyətlərin yaranmasına və dinamik şəkildə inkişafına təsir göstərir.

Eyni zamanda tədqiqat işində ailənin polireallığı və cəmiyyətin monoreal mənzərəsi arasındakı yaranan ziddiyyətlər müqayisəli şəkildə təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada qoyulan və həllinə cəhd göstərdiyimiz bir sıra problemlər, sonrakı tədqiqatçılar üçün araşdırma obyektinə çevrilə və problemin daha əsaslı öyrənilməsinə zəmin yarada bilər. Tədqiqatdan əldə edilmiş nəticələr müasir Azərbaycan ailəsində ailədaxili ziddiyyətlərin yaranmasının qarşısının alınmasında və artıq yaranmış sosial – psixoloji problemlərin həlli ilə məşğul olan mütəxəssislərin işində, ailəyə xidmət işinin təşkilində, həmçinin ailə qurmağa hazırlaşan şəxslərin maarifləndirilməsində istifadə edilə bilər. Dissertasiyanın bir neçə müddəa və nəticələrindən psixoloq, sosioloq və pedaqoqlar, tərbiyəçilər, valideynlər, ali məktəb tələbələri və ümumiyyətlə gənclər istifadə edə bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəzəri və tətbiqi nəticələri haqqında respublika və beynəlxalq səviyyəli elmi konfranslarda məruzələr edilmiş, həmin çıxışların mətnləri elmi konfrans materiallarında nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu, "Sosial psixologiya" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda və ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısını və əlavədən ibarətdir. Dissertasiyanın strukturunda titul hissə və mündəricat 2 səhifə - 1857 işarədən, giriş 6 səhifə - 11405 işarədən, 1.1. – 17 səhifə - 27317 işarədən, 1.2. – 7 səhifə - 11,221 işarədən, 2.1 – 9 səhifə - 15,423 işarədən, 2.2. – 27 səhifə - 45,275 işarədən, 2.3. – 21 səhifə - 39,803 işarədən, 3.1. – 20 səhifə - 19,182 işarədən, 3.2. – 12 səhifə

- 20,644 işarədən, nəticə - 4 səhifə - 7221 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısı 12 səhifə - 16,193 işarə, əlavə 11 səhifə - 9753 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 145 səhifə - 225149 işarədən ibarətdir. Dissertasiyanın ümumi mətn hissəsi (cədvəllər, sxemlər və ədəbiyyat siyahısı istisna edilməklə) isə 133 səhifə kompüter yazısı və ya 198715 işarə təşkil edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə səviyyəsi nəzərdən keçirilir, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yenilik məqamları, nəzəri – metodoloji əsasları, elmi – nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu açıqlanır.

Dissertasiyanın birinci fəsli **"Mövzunun metodoloji əsasları"** adlanır, iki paraqrafdan ibarətdir və nəzəri xarakter daşıyır.

Bu fəslin "Ailə - sosial institut konsepsiyasının metodoloji əsasları" adlanan birinci paraqrafında "ailə" anlayışının özü ilə bağlı məsələyə aydınlıq gətirmək üçün müxtəlif müəlliflərin bununla bağlı mövqeləri geniş təhlil olunaraq ümumiləşdirilir. Respublikamızda ailədaxili münasibətlərin tədqiqinə həsr olunmuş işlərin geniş psixoloji təhlili verilir və problemin nisbətən az öyrənilmiş tərəfləri müəyyən edilir.Eyni zamanda sosial institut, onun tipləri, yerinə yetirdiyi funksiyalar, ailə institutunun həm bütövlükdə cəmiyyətdə, həm də ayrıca ailədə yerinə yetirdiyi funksiyalar, ailə tipləri haqqında ətraflı məlumat verilmişdir. Dissertasiya işi E.Duvall və R.Hillin "Ailənin həyat dövrü" nəzəriyyəsinə əsaslanmışdır.

İkinci paraqraf "Müasir Azərbaycan ailəsinin sosial institut kimi inkişaf potensialı" adlanır. Dünyada gedən qloballaşma prosesləri, İnformasiya Kommunikasiya Texnologiyalarının sürətli inkişafı hər bir sahədə özünü göstərməkdədir. Bu gün qurulan ailələr artıq müasir ailələr hesab olunur. Ailə institutunun yaxın gələcəkdə sosial – psixoloji təhsillənmə yollarının araşdırılması zərurəti günümüzün vacib mərkəzi vəzifələrindən birinə çevrilir. Bu paraqrafda Azərbaycan Respublikasında ailə haqqında görkəmli

mütəxəssislər tərəfindən psixoloji, sosial – psixoloji istiqamətdə aparılmış tədqiqatlar, Azərbaycan Respublikasının Konstitusiyasında ailə, nikah haqqında maddələr, Azərbaycan Respublikasının ailə Məcəlləsinin bəzi müddəaları və digər normativ hüquqi sənədlərə istinad edilmişdir. Müasir Azərbaycan ailəsinin inkişaf potensialı təhlil edilmişdir.

Dissertasiya işinin ikinci fəsli "**Müasir Azərbaycan ailəsində yaranan ziddiyytlərin səbəbləri və ona təsir edən amillər"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir.

Birinci paraqraf "Müasir Azərbaycan ailəsinin xarakterik xüsusiyyətlərinin milli – mənəvi dəyərlər prizmasından təhlili" adlanır. Hər bir xalqı dünyada tanıdan onun mədəniyyəti ilə yanaşı, etnik, milli-mənəvi dəyərləri, adət-ənənənləridir ki, bu da ölkənin mədəni tərəqqisinin əsas göstəricilərindən hesab olunur. Ailə cəmiyyətin aparıcı qüvvəsi olan vətəndaşlar yetişdirir, milli – mənəvi dəyərlər sistemini, milli mentaliteti formalaşdırır, sosial münasibətlərin tənzimləyicisi rolunda çıxış edir. "Mentalitet müəyyən bir xalqın xarakterində, şüur, düşüncə və davranışında, məişətində, adət - ənənəsində öz əksini tapan, əsasən dəyişməyən, situasiyadan asılı olmayaraq sabit qalan milli xüsusiyyətdir"[1] **.**

Xalqımızın əsrlər boyunca qoruyub – saxladığı və bu günümüzə qədər yaşatdığı zəngin ailə dəyərləri vardır: böyüklərə hörmət, sədaqət, qarşılıqlı məhəbbət, dürüstlük, fədakarlıq, yardım etmək, səbr göstərmək, güzəştə getmək, mərhəmətlilik, ləyaqət, məsuliyyət, qarşılıqlı anlayış, qonaqpərvərlik və bu kimi dəyərlərin hər bir müasir Azərbaycan ailəsində qoruması yollarını açıqlamaq və dəstəkləmək bir vəzifə olaraq cəmiyyətimizin qarşısında durur.

Uzun əsrlər boyu xalqımızın mənəviyyatının əsasında duran əxlaq normaları, dini adət - ənənələri sağlam islam dininin mənəvi dəyərlərinə söykənmişdir. İslam dini xalqımızın milli – mənəvi sərvətidir. İslam dini ailə - nikah münasibətlərinin tənzimlənməsində əxlaq normalarına xüsusi əhəmiyyət verir. İslam dininə görə uşaqların təlim – tərbiyəsində ilk məsuliyyət daşıyan ailədir. Azərbaycan xalqının adət - ənənələrini, inam və əqidəsini, milli – mənəvi dəyərlərini özündə əks etdirən islam dini həm də əvəzsiz

[1] Əliyev R.İ. Mentalitet / Əliyev R.İ. - Bakı: Elm və Təhsil, - 2009. - 232s.

elm və mədəniyyət xəzinəsidir və bütün bunlar dinimizin müqəddəs kitabı olan "Quran-i Kərim"də ətraflı izah olunmuşdur:

İkinci paraqraf "Müasir Azərbaycan ailələrində yaranan ziddiyyətlərin motivlərinin təhlili" adlanır.

Ailədaxili ziddiyyətlər dedikdə, ailə üzvlərinin (ər – arvad, valideyn – övlad) bir – biriylə olan münasibətində yaranan problemlər nəzərdə tutulur. Ailədə uzun müddət birlikdə yaşayan iki nəfərin (ər – arvad) arasında ziddiyyətlərin, anlaşılmazlıqların yaranması normal hal kimi qəbul oluna bilər. Müxtəlif səbəblərdən qaynaqlanan bu problemləri sağlam düşüncəli şəkildə həll edənlər yenidən ailə xoşbəxtliyinə nail olurlar. Lakin bir qism ailələr vardır ki, yaşadıqları problemlər, qarşılıqlı anlaşılmazlıqlar getdikcə artır ki, bu da boşanma ilə nəticələnir.

Ümumiyyətlə, ailədaxili ziddiyyətlərə, xüsusilə də boşanmalara səbəb olan motivlər üç qrupa ayrılır:[2]

- İqtisadi münasibətləri özündə cəmləşdirən motivlər;
- Psixoloji və fizioloji xüsusiyyətlərə əsaslanan motivlər;
- Sosial bioloji mənbəyi olan motivlər.

Bunları nəzərə alaraq həmçinin deyə bilərik ki, bu üç motivlər qrupu ilə yanaşı şəxsi keyfiyyətlərə əsaslanan motivlər əsas motivlərdən biri kimi xüsusi əhəmiyyətə malikdir. Şəxsi keyfiyyətlər motivlərindən - insanın dünyagörüşü, mədəni yaş səviyyəsi və mənlik potensialının bir motiv kimi ailənin formalaşmasındakı rolu əvəzsizdir. Bütün bu motivləri ailənin sütunu kimi qəbul etmək olar.

Dissertasiya işində ailədaxili ziddiyyətlərin yaranma səbəbləri həm də psixoloji baxımdan analiz edilir.

Ailədaxili ziddiyyətlərin əsasında həmçinin şəxsin temperament tipi, xarakterinin xüsusiyyətləri və şəxsiyyət tiplərinin uyğunsuzluğu kimi psixoloji səbəblər dayanır. Temperament insanın anadəngəlmə xüsusiyətləri toplusudur. Xarakter isə doğulduqdan sonra formalaşır. "Konkret şəxsiyyət üçün tipik olan fəaliyyət və ünsiyyət prosesində formalaşan və təzahür edən, tipik şəraitdə üzə çıxan və şəxsiyyətin bu şəraitdə olan münasibəti ilə müəyyən

[2] Altay toplulukları. Aile ve aile değerleri / İ.Şahin, F.Solak, K.Güljanat [və b.] - İstanbul: Türk Dünyası Belediyeler Birliği (TDBB) Yayınları, - No: 27, 2019.

edilən özünəməxsus fərdi psixoloji xüsusiyyətlərinin məcmusuna xarakter deyilir”[3]. İnsan xarakteri çoxcəhətli xüsusiyyətlərə - əlamətlərə malikdir. Bundan başqa xarakter əlamətləri içərisində bəziləri əsas, aparıcı əlamət kimi özünü göstərdiyi halda, bir qismi də ikinci dərəcəli xüsusiyyətlər olaraq qalır. Xarakter əlamətlərini şərti olaraq müsbət və mənfi qruplara bölmək olar. Müsbət xarakter əlamətlərinə dürüstlük, təvazökarlıq, vicdanlılıq, məsuliyyətlilik, əməksevərlik, səliqləlilik, qayğıkeşlik, xeyirxahlıq, kobudluq, eqoizm, xəsislik və s., mənfi xarakter əlamətlərinə isə yalançılıq, lovğalıq, məsuliyyətsizlik, vicdansızlıq, tənbəllik, pintilik, laqeydlik, qəddarlıq, nəzakətsizlik, alturizm və s. göstərmək olar.

Ailədaxili ziddiyyətlərin yaranma səbəbləri heç də hər zaman insanların temperament və xarakteri ilə əlaqəli deyildir. Bunlar şəxsiyyətin strukturunda mühüm yer tutan komponentlərdir. Burada insanın bilik, bacarıq, vərdişləri, qabiliyyətləri, davranışı, tələbat və motivləri, dünyagörüşü, əqidəsi, mədəni yaşı, intellekt səviyyəsi, mənlik şüuru, özünüdərketməsi, özünüqiymətləndirməsi, maraq və meylləri, ideyaları, yönəlişliyi, hissləri, iradəsi də mühüm rol oynayır. Bütün bu xüsusiyyətlər məhz şəxsiyyət anlayışında açıqlanır.

Ümumiyyətlə ailədaxili ziddiyyətlər yaranma səbəbləri müxtəlif ola bilər. Bunları qısa şəkildə qruplaşdırsaq:

1) Ünsiyyət çatışmazlığı və qarşılıqlı anlaşılmazlıq;
2) Sevgi, hörmət və inam hissinin itməsi, xəyanət, aldatma, diqqət, qayğı əksikliyi;
3) Təhsil səviyyəsi, dünyagörüşünün müxtəlif olması, xarakterin uyğunsuzluğu, həddən artıq qısqanclıq;
4) İqtisadi çətinliklər, işsizlik;
5) İnternet vasitələri, xüsusilə sosial şəbəkələrdən uzun müddət istifadə və həyatını daha maraqlı keçirmək istəyi;
6) Ailədaxili münasibətlərə kənar şəxslərin müdaxiləsi;

---

[3] Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik / Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə - Bakı: Nurlan, - 2007. - 703s.

7) Övladın olmaması – sonsuzluq, intim münasibətlərin pozulması;
8) Fiziki zorakılıq, psixoloji təzyiq, ər – arvad arasında yaş fərqinin çox olması, erkən nikahlar, nikaha və ailəyə qeyri – ciddi münasibət, qarşılıqlı razılıq olmadan məcburi bağlanan nikah, alkoqolizm, narkomaniya və s.

İkinci fəsilin üçüncü parqarafı "İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) cəmiyyətində virtual düşüncə tərzinin ailənin sosial – psixoloji mühitinə təsiri adlanır. Müasir dövrdə İKT, xüsusilə KİV (Kütləvi İnformasiya Vasitələri) həyatımızın arılmaz hissəsinə çevrilmişdir. Müasir cəmiyyət Kütləvi İnformasiya vasitələrinin müxtəlif növlərindən – TV, radio, mətbuat kimi kütləvi infomasiya vasitələri ilə yanaşı son illərdə geniş yayılmış və artıq bir çox ölkələrdə KİV kimi qəbul edilmiş internet vasitəsilə də çoxsaylı məlumatlar əldə etmək imkanına malikdir. Müasir dövrdə böyüyən gənc nəsil artıq kompüterləşmə zəmanəsinin, informasiya cəmiyyətinin "övladlarıdır". Onlar artıq bir növ reallıqdan uzaq, emosiyalardan, milli mənəviyyatdan qismən məhrum olan virtual həyat yaşamağa meyllidirlər.

Son dövrlərdə sosial şəbəkələr vasitəsilə kiberbullinq hallarının xüsusilə təhsil müəssissələrində artması günümüzün aktual probleminə çevrilib. "Zorbalıq, bəzən bullinq (həmçinin bullinq ingiliscə bullying) və ya təkləmək kimi qeyd olunur — hər hansı bir şəxsə və ya qrupa qarşı güc tətbiq etmə, təhdid və ya sui-istifadəyə məcbur etmə, hədələmə və ya təcavüzkarlıqla idarə etmə"[4].

İnternet resurslarından, oyunlardan uzun müddət istifadə etdikdə bu şəxslərdə müxtəlif mənfi təsirlər yaranır[5].

Psixoloji təsir – üzülmək, utanmaq, özünü ağılsız hiss etmək, və hətta qəzəb, həyəcan,qorxu kimi hisslər doğura bilər.

Emosional təsir – utanc hissi və ya sevdiyiniz şeylərə maraq itirmək, depressiv hallar,

---

[4] https://az.wikipedia.org/wiki/Zorbal%C4%B1q

[5]https://www.unicef.org/azerbaijan/az/kiberbullinq-bu-n%C9%99dir-v%C9%99-onu-nec%C9%99-dayand%C4%B1rmaq-olar

Fiziki təsir - yorğunluq (yuxu itkisi) və ya mədə ağrısı və baş, əzələ ağrısı kimi simptomlar yarada bilər.

Dissertasiyanın üçüncü fəsil **“Empirik tədqiqatın sosial – psixoloji nəticələri”** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. Birinci fəsilin birinci paraqrafı “Anket sorğusunun aparılması, ümumiləşdirilməsi və nəticələri” adlanır. Bu paraqrafda sınaqdan keçirilənlərin seçimi və eksperimental psixoloji tədqiqatın metodikaları təsvir edilir. Tədqiqatda Azərbaycan Respublikası vətəndaşı olan 230 evli cütlük iştirak etmişdir. Sorğu Bakı, Sumqayıt və Gəncə şəhərlərində aparılmışdır.

**Ailədaxili ziddiyyətlərin səbəbləri**

**Cədvəl 1**

| Sıra nömrəsi № | Ailədaxili ziddiyyətlərin səbəbləri | Faiz göstəricisi (%) | Say |
|---|---|---|---|
| 1 | Qısqanclıq | 30,43 | 140 |
| 2 | İnternet resurslarından və sosial şəbəkələrdən uzun müddətli istifadə | 19, 13 | 88 |
| 3 | Maddi sıxıntı | 13,91 | 64 |
| 4 | Qarşı tərəfin diqqətsizliyi | 10,86 | 50 |
| 5 | Kənar şəxslərin müdaxiləsi | 10 | 46 |
| 6 | Digər səbəblər (fikir uyğunsuzluğu, səbrsizlik, məsuliyyətsizlik, “məni başa düşmür” fikri, öz fikrinin olmaması, spirtli içkilərdən istifadə və s. | 4,34 | 20 |
| 7 | Xəyanət | 3,47 | 16 |
| 8 | Bir – birimizə güzəştə getdiymizə görə ziddiyyət olmur | 2,60 | 12 |
| 9 | Yaş fərqinin çox olması | 2,17 | 10 |
| 10 | Sizin həyat yoldaşınızı sevməməyiniz | 1,30 | 6 |
| 11 | İşsizlik | 1,08 | 5 |
| 12 | Həyat yoldaşınızın sizi sevməməsi | 0,65 | 3 |

Cədvəl 1 -dən göründüyü kimi apardığımız anonim anket sorğusunun nəticəsinə əsasən müasir dövrdə ailədaxili ziddiyyətlərin səbəbi daha çox qısqanclıq, internet resurslarından və sosial şəbəkələrdən uzun müddətli istifadə, maddi sıxıntı, kənar şəxslərin müdaxiləsi və qarşı tərəfin diqqətsizliyidir. Bu zaman belə bir sual yarana bilər. Ailədaxili ziddiyyətlər tərəflərin (ər-arvad) təhsil səviyyəsi, əmək fəaliyyəti, ailədə yaşayanların sayı (ailə tərkibi) ilə nə dərəcədə əlaqəlidir?

**Ailədaxili ziddiyyətlərin səbəblərinin ər-arvadın təhsil səviyyəsi ilə əlaqəsi**

**Cədvəl 2**

| Ailədaxili ziddiyyətlərin səbəbləri | Ər və arvadın təhsili: ali – ali | Ər və arvadın təhsili: ali – orta | Ər və arvadın təhsili: orta – orta |
|---|---|---|---|
| Qısqanclıq | 58 | 44 | 38 |
| İnternet resurslarından çox istifadə | 40 | 32 | 16 |
| Maddi sıxıntı | 14 | 15 | 29 |
| Qarşı tərəfin diqqətsizliyi | 13 | 9 | 13 |
| Kənar şəxslərin müdaxiləsi | 10 | 14 | 11 |
| Fikir ayrılıqları və bu tipli səbəblər | 9 | 6 | 5 |
| Yaş fərqi böyük olması | 4 | 8 | 4 |
| Xəyanət | 4 | 16 | 6 |
| İşsizlik | - | 6 | 2 |
| Onun sizi sevməməsi | - | 6 | - |
| Sizin onu Sevməməyiniz | 4 | 4 | |
| Ziddiyyət yoxdur | 10 | 8 | 2 |

**Ailədaxili ziddiyyətlərin səbəblərinin ər və arvadın təhsil səviyyəsi ilə əlaqəsinini Pirson əmsalı üzrə asılılıq sınağı**

**Cədvəl 3**

| Ailədaxili ziddiyyətlərin səbəblərinin ər və arvadın təhsil səviyyəsi ilə əlaqəsi | Pirson asılılıq əmsalı (r) | Say | Sərbəstlik dərəcəsi |
|---|---|---|---|
| Ali-ali və ali-orta | 0,912 | 11 | 9 |
| Ali-ali və orta-orta | 0,588 | 9 | 7 |
| Ali-orta və orta-orta | 0,645 | 9 | 7 |
| Pirson asılılıq əmsalının dəyişmə intervalı -1<r<+1 | | | |

Cədvəl 3-ə nəzər salsaq görərik ki, qısqanclıq daha çox hər ikisi ali təhsilli ər-arvad, daha az isə hər ikisi orta təhsilli ər-arvad arasında rast gəlindiyi halda, qarşı tərəfin diqqətsizliyi, kənar şəxslərin müdaxiləsi, yaş fərqinin böyük olması səbəbi kimi ailədaxili ziddiyyətlərdə təhsil səviyyəsinin eyni və ya fərqli olmasının böyük əhəmiyyəti demək olar ki, yoxdur.

Bu faktların təhlilindən belə qənaətə gəlmək olar ki, internet resurslarından uzun müddətli istifadənin yaratdığı ziddiyyət ali – ali və ali – orta təhsilli cütlüklər arasında daha çox yaranır. Məsələn, sosial şəbəkələrdə açdığı hesablarda başqaları ilə müxtəlif məqsədlərlə əlaqələr yaratmaq, paylaşımlar etmək və ya ixtisasına uyğun müxtəlif mənbələrdən məlumatlar əldə etmək və s. bu kimi hallar həmin şəxslərin internetdə daha çox zaman keçirməsinə səbəb olur ki, bu da ailədaxili ziddiyyətlərə gətirib çıxarır.

İşsizlik və maddi sıxıntının yaratdığı ailədaxili ziddiyyətlər isə daha çox bir tərəfin orta digər tərəfin ali və ya hər iki tərəfin orta təhsilli olduğu cütlüklər arasında yaşanır. Fikrimizcə, buna səbəb təhsil səviyyəsi yüksək olmadığına görə daha aşağı məvacibli və ya gündəlik işlərdə işləmək və ya iş tapa bilməməkdir. Nəticədə ailənin aylıq gəliri aşağı səviyyədə olur ki, bu da bir qism tələbatların ödənməməsinə və münaqişələrə gətirib çıxarır.

Ailədaxili ziddiyyətlərin səbəblərinin ər və arvadın təhsil səviyyəsi ilə əlaqəsinin Pirson kofisienti asılılıq sınağı ilə göstəriciləri aşağıdakı cədvəldə göstərilmişdir.

**Ailədaxili ziddiyyətlərin ailənin tərkibi ilə əlaqələndirilməsi**

**Cədvəl 4**

| Ailədaxili ziddiyyətlərin səbəbləri | Evdə ancaq ər və arvad yaşayır | Evdə ər, arvad və uşaq (lar) yaşayır | Evdə ər, arvad, uşaq (lar) və başqaları (ata, ana bacı, ...) yaşayır |
|---|---|---|---|
| Qısqanclıq | 20 | 50 | 70 |
| İnternet resurslarından çox istifadə | 6 | 38 | 44 |
| Maddi sıxıntı | 10 | 22 | 52 |
| Qarşı tərəfin diqqətsizliyi | 1 | 10 | 24 |
| Kənar şəxslərin müdaxiləsi | 5 | 13 | 17 |
| Fikir ayrılıqları və bu tipli səbəblər | 3 | 13 | 4 |
| Yaş fərqi böyük olması | - | 7 | 1 |
| Xəyanət | - | 6 | 7 |
| İşsizlik | 2 | 4 | 2 |
| Onun sizi sevməməsi | 2 | 4 | - |
| Sizin onu sevməməyiniz | 2 | 6 | - |
| Ziddiyyət yoxdur | - | 7 | 8 |

Cədvəl 4- ə əsasən deyə bilərik ki, ailədə üzvlərin sayına görə yaranan ailədaxili ziddiyyətlər müxtəlif statistik göstəricilərə malikdir.

Belə ki, qısqanclıq halları ailədə daha çox ər, arvad, uşaq və digər ailə üzvlərinin yaşadığı mühitdə yaranmışdır. Buardan belə qənaətə gəlmək olar ki, qısqanclıq dedikdə sadəcə əks cins (ər və ya arvad) deyil, həm də ailədə qadın və ya kişinin həyat yoldaşını ailənin digər üzvlərinə qısqanması da nəzərdə tutulur. Bu zaman həyat yoldaşına ayrılan zaman, ona göstərilən diqqət daha da azalmış olur, nəticədə tərəflər arasında ziddiyyətlər yarana bilir.

İnternet resurslarından uzunmüddətli istifadə halları da daha çox ər, arvad, uşaq(lar) və digər ailə üzvlərinin birgə yaşadığı ailələrdə rast gəlinib. Bu bizə belə düşünməyə əsas verir ki, sosial şəbəkələrdə müxtəlif paylaşımlar etmək, həyat yoldaşı ilə ünsiyyətin normal olmaması, internetdə uşaqlar və ya ailənin digər üzvləri ilə müxtəlif oyunlar oynamaq və s. kimi səbəblər belə ailələrdə daha çox müşahidə olunur.

**Ailədaxili ziddiyyətlərin səbəblərinin ailə tərkibi ilə əlaqələndirilməsinin Pirson əmsalı üzrə asılılıq sınağı ilə göstəriciləri:**

**Cədvəl 5**

| Ailədaxili ziddiyyətlərin səbəblərinin ailə tərkibi ilə əlaqəsi | Pirson asılılıq əmsalı (r) | Say | Sərbəstlik dərəcəsi |
|---|---|---|---|
| Evdə ancaq ər-arvad yaşayan ailə ilə ər-arvad uşaq(lar) yaşayan ailə | 0,828 | 11 | 9 |
| Evdə ər-arvad yaşayan ailə ilə ər-arvad, uşaq (lar) və digər ailə üzvləri yaşayan ailə | 0,669 | 9 | 7 |
| Evdə ər-arvad, uşaq(lar) yaşayan ailə ilə ər-arvad, uşaq(lar) və başqaları yaşayan ailə | 0,768 | 9 | 7 |
| Pirson asılılıq əmsalının dəyişmə intervalı -1<r<+1 | | | |

Anket sorğusunda həmçinin yaranmış ailədaxili ziddiyyətlərin həlli yolları da fərdi şəkildə öyrənilmişdir. Sorğu nəticələri cədvəl 8-də göstərilmişdir:

**Ailədaxili ziddiyyətlərin həllinə fərdi yanaşma**
**Cədvəl 6**

| № | Ailədaxili ziddiyyətlər zamanı bu məsələni necə həll edirsiz? | Say | Faiz nisbəti (%) |
|---|---|---|---|
| 1 | İkimiz təklikdə danışıb məsələyə aydınlıq gətirməyə çalışırıq | 224 | 48,69 |
| 2 | İkimiz dava edirik, əsəbləşirik | 72 | 15,65 |
| 3 | Kənar şəxslər müdaxilə etdikdən sonra məsələyə son qoyulur | 48 | 10,43 |
| 4 | Bir – birimizə güzəştə gedirik | 36 | 7,82 |
| 5 | Mən ondan küsürəm, gözləyirəm barışsın | 30 | 6,52 |
| 6 | Sakit qalıb dinləyirəm | 26 | 5,65 |
| 7 | Səbr edib gözləyirəm ki, zamanla məsələ öz həllini tapar | 24 | 5,21 |

Cədvəl 6-dan göründüyü kimi sorğuda iştirak edən 230 cütlükdən təxminən yarısı 224 nəfəri (48,69 %) ailədaxili ziddiyyətlər yarandıqda onu ər və arvad təklikdə özləri danışıb həll etməyə və bir – birini başa düşməyə çalışdıqlarını söyləmişlər. Digər 72 nəfər (15,65%) ailədaxili ziddiyyətlərin münaqişələrə gətirib çıxardıqların, dava etdiklərini, 48 nəfər (10,43%) kənar şəxslərin (adətən valideynlər) müdaxiləsindən sonra məsələyə aydınlıq gətirdiklərini, 36 nəfər (7,82%) bir – birinə güzəştə getdiklərini, 30 nəfər (6,52%) küsərək qarşı tərəfin məsələni həll edəcəyini gözləməsini, 26 nəfər (5,65%) sakit qalıb dinləməyi və 24 nəfər (5,21%) səbrlə zamanla məsələnin həll olunacağını gözlədiyini yazmışdır.

Mövzumuzla bağlı sorğu metodunun bir növü olan anket sorğusu əsasında əldə olunan tədqiqat materiallarının ümumiləşdirməsinin və nəticələrinin əsaslı və mötəbər olmasını təmin etmək məqsədilə əlavə test – sorğu materiallarından istifadə edilmişdir.

Sorğu əsasən 11 ildə (2009 – 2020) ailə quran və evli olan 230 cütlük arasında anonim şəkildə keçirilmişdir. Anket sorğusunun 15 - ci sualının alt komponentləri üzərindən verbal – kommunikativ metod vasitəsilə idarə olunmayan müsahibə, onlayn vasitəsilə əlavə idarə olunan müsahibə aparılmış (Əlavə 2,4,5), anket sorğusunun 16-cı sualına əlavə olaraq test sorğusu keçirilmişdir. E.K. Vasilyevanın ailənin həyat dövrü təsnifatına əsasən modifikasiya olunmuş anket sorğusu (əlavə 2) nəticələrinə əsasən 460 nəfər iştirakçıdan 100 nəfər "bəli", 300 nəfər "xeyr", 60 nəfər isə "nisbətən" cavab variantını seçmişdir.

"Qısqancsınızmı?" test sorğusu (əlavə 4) 460 nəfərlə keçirilmişdir və nəticədə iştirakçılardan 161 nəfər 20-30 bal, 204 nəfər 10-19 bal, 95 nəfər isə 0-9 bal arası hesablanmışdır. Anket sorğusunun (əlavə 1) nəticələrinə əsasən iştirakçılardan 140 nəfər (30,43%) ailədaxili ziddiyyətlərin səbəbi kimi qısqanclığı göstərmişdir. Test sorğusunun nəticələrinə əsasən isə iştirakçıların 35 %-i yüksək bal yəni, 20 – 30 bal arası nəticə göstərmişdir. Müqayisəli təhlil göstərir ki, ailədaxili ziddiyyətlərə ən çox səbəb olan faktor qısqanclıqdır və nəticələrdə uyğunluq vardır. .

Ailə asılılıq profil indeksi (BAPİ-A) test sorğusu 460 nəfər iştirakçı ilə keçirilmişdir. Sorğunun nəticələrinə əsasən iştirakçılardan 89 nəfər "bəli", 295 nəfər "xeyr", 76 nəfər "qismən" cavab variantını seçmişdir. Anket sorğusuna (əlavə 1) əsasən iştirakçıların 88 nəfəri (19,13%) internet resurslarından və sosial şəbəkələrdən uzunmüddətli istifadə ailədaxili ziddiyyətlərə səbəb olduğunu göstərmişdir. Test və anket sorğularının müqayisəli təhlili göstərir ki, internet resurslarından və sosial şəbəkələrdən uzunmüddətli istifadə ailədaxili ziddiyyətlərə səbəb olur və nəticələrdə uyğunluq vardır.

Anket sorğusunun (əlavə 1) 16-cı sualına əlavə olaraq 230 cütlük arasında yenidən test sorğusu keçirilmişdir . Sorğunun nəticələrinə əsasən iştirakçıların 265 nəfər 0-10 bal, 195 nəfər isə 11-29 bal arası cavablar qeyd etmişdir. Bu nəticəni anket sorğusu (əlavə 1) ilə müqayisəli təhlil etsək nəticələr uyğundur.

Üçüncü fəslin " Ailədaxili ziddiyyətlər nəticəsində yaranan sosial – psixoloji problemlərin təhlili və əlverişli sosial – psixoloji durumun formalaşdırılmasının şərtləri" adlanan üçüncü paraqrafında sosial institut kimi ailənin fəaliyyət göstərməsi üçün o, cəmiyyətdə mövcud olan digər institutlarla – təhsil, səhiyyə, iqtisadiyyat, din, mədəniyyət və s. qarşılıqlı əlaqədə olması zəruriliyi ön plana çəkilir. Cəmiyyətin normativ və sosial – struktur sistemlərinə daxil olmaqla ailə onlara xas olan digər sosial rolları da tədricən mənimsəyir və ailə üzvlərinin davranışına nəzarət edə bilir. Ailə rollarına ər – arvad, valideyn (ata, ana), oğul, qız, bacı, qardaş, baba, nənə və s. aiddir. Ailəni sosial institut kimi analiz etdikdə bu rollara da diqqət yetirmək əhəmiyyətlidir.

Milli adət - ənənələrini, dəyərlərini ailə mühitində qorunması və nəsildən – nəsilə ötürülməsi valideynlərin məsuliyyətli və vacib vəzifəsi kimi ön plana çəkilir.

Apardığımız tədqiqat bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir.

1. Ailənin tədqiqi sahələri içərisində ailədaxili ziddiyyətlərin sosial – psixoloji tərəfləri, onların qarşısının alınması və həlli kimi məsələlərin öyrənilməsi əksər tədqiqatçılar tərəfindən ön plana çəkilmişdir.
2. Müasir cəmiyyətdə baş verən proseslərin çoxşaxəli və rəngarəng olması ailədaxili ziddiyyətlər və ümumiyyətlə ailənin tədqiqatına müasir dövrün prizmasından baxmağı tələb edir.
3. Tədqiqat işində ailə - sosial institut konsepsiyasının metodoloji əsasları sistemli şəkildə təhlil edilmişdir. Mövzu E.M.Dyuvall və R.L.Hillin "Ailənin həyat dövrü" nəzəriyyəsinə əsaslanaraq sosial konstruktivizm (həyat sosiologiyası konsepsiyası) müstəvisində ailənin psixoloji, sosioloji təsviri virtual reallıqlar aspektində araşdırılmışdır.
4. Qloballaşma şəraitində etnik milli xüsusiyyətlərimiz də müəyyən təsirlərə məruz qalmaqdadır. Belə bir şəraitdə milli – mənəvi dəyərlərimizi qorumaq, eyni zamanda qlobal proseslərdən də kənarda qalmamaq, millilik və bəşəriliyi əlaqələn-

dirmək müasir Azərbaycan ailəsinin formalaşmasının əsasını təşkil edir.

5. Müasir dövrdə cəmiyyətdə virtual düşüncə tərzi formalaşdırmışdır ki, bu ailə mühitində də fərdlərdə formalaşır. Ailə üzvləri virtual aləmin müsbət təsirləri (faydalı ünsiyyət, fikir mübadiləsi, distant təhsil, müxtəlif yerli və beynəlxalq konfranslarda iştirak etmək, özünü inkişaf etdirmək və s.) ilə yanaşı mənfi təsirlərinə (internet oyunlarından istifadə, əxlaqa zidd davranışlar və tanışlıqlar, sosial şəbəkələrdə vaxtını səmərəsiz keçirmək və s.) də məruz qalırlar. Tədqiqatımızın təhlili göstərir ki, bu gün KİV vasitələri ailədaxili ziddiyyətlərə ən çox səbəb olan amillərdəndir.
6. Apardığımız tədqiqat nəticəsində məlum oldu ki, müasir şəraitdə sosial - iqtisadi, psixoloji amillərin gənclərin dünyagörüşündə, özünə və cəmiyyətə münasibətində köklü dəyişikliklər yaradır. Gənclərin qarşılaşdıqları iqtisadi çətinliklər, işsizlik problemi, onların fərdi maraqlarının üst – üstə düşməməsi və s. bu kimi hallar ailədaxili münasibətlərin pozulmasına zəmin yaradır.
7. Müasir dövrdə yetkinlik yaşına çatmış, özünü və ətraf aləmi şüurlu şəkildə dərk edən, sərbəst düşünülmüş qərarlar qəbul edə bilən, evliliyə psixoloji və fiziki baxımdan özünü hazır hiss edən və qanunda nəzərdə tutulmuş yaş həddinə çatan şəxslərin ailə qurması daha məqsədə uyğun hesab edilir.
8. Ailə mədəniyyəti haqqında məlumatlılıq həm gənclərdə öz ailəsində şəxsiyyətlərarası münasibətlərin düzgün qurulmasında, həm də yeni doğulacaq uşaqların tərbiyələndirilməsində mühüm əhəmiyyətə malikdir. Ailə mədəniyyəti özündə yalnız ailənin deyil, həm də mənsub olduğu xalqın milli və ümumbəşəri dəyərlərini, mədəniyyətini əks etdirir.
9. Evliliyə psixoloji hazır olmaq dedikdə, ailə məsuliyyətini dərk etmək, yeni mühitə uyğunlaşmaq, ailədaxili münasibətləri tənzimləməyi bacarmaq, valideynliyə psixoloji hazırlıq, ən əsası isə özünün fərdi, psixoloji xüsusiyyətlərinə yaxından bələd olmaq nəzərdə tutulur.

10. Apardığımız anket sorğusu və sorğunun son sualının alt komponentlərinin müəyyənləşdirici və formalaşdırıcı nəticələrinin təhlilinə əsaslanaraq deyə bilərik ki, müasir Azərbaycan ailəsində ailədaxili ziddiyyətlərin yaranma səbəbləri arasında ən çox rast gəlinən qısqanclıq, internet resurslarından və sosial şəbəkələrdən uzunmüddətli istifadəyə virtual gerçəklikdən transformasiya, maddi sıxıntı, qarşı tərəfin diqqətsizliyi, kənar şəxslərin müdaxiləsi, fikir ayrılıqları, bir – birini başa düşməmək, məsuliyyətsizlik və xəyanətdir.
11. Apardığımız anket sorğusunun və verbal – kommunikativ metodikaların tətbiqinin nəticələrinin təhlilindən belə qənaətə gəlmək olar ki, müasir Azərbaycan ailəsində ailədaxili ziddiyyətlərin yaranması ər və arvadın təhsil səviyyəsi, ailə tərkibləri (ailədə yaşayan digər üzvlər), ər və arvadın işləyib – işləməməsindən xeyli dərəcədə asılıdır.
12. Tədqiqatın təhlilindən belə nəticəyə gəlmək olar ki, ailədaxili ziddiyyətlərin həlli yolları iki cür ola bilər: konstruktiv və qeyri – konstruktiv.
13. Apardığımız tədqiqatların təhlilindən və bizim tədqiqatın nəticələrinə əsasən belə qənaətə gələ bilərik ki, insanların böyüdükləri ailə mühiti, həyat tərzi, dünyagörüşləri fərqli və özünəməxsus olduğundan onlardan bəziləri yaşadıqları ailə mühitini dəyişdikdə - yəni ailə qurduqda, yeni mühitin gətirdiyi dəyişikliklərə asanlıqla uyğunlaşır, qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlməyi bacarır və beləliklə xoşbəxt və uzunömürlü ailəsi olur.
14. Ailədaxili ziddiyyətlərin həlli qarşılıqlı anlaşma şəraitində mümkün olmadıqda isə ailə psixoterapevti və ya ailə psixoloquna müraciət etmək məqsədəuyğun hesab olunur.
15. Ailədaxili ziddiyyətlər sadəcə ailənin deyil, həm də cəmiyyətin problemidir. Çünki ailə cəmiyyətin özəyidir. Ona görə də bu məsələnin həllinə həm də dövlət səviyyəsində dəstək olunması çox vacibdir.
16. Təhsil sistemində orta və ali təhsil müəsissələrində bir sıra - ədəbiyyat, tarix, həyat bilgisi, informatika, iqtisadiyyat, sosiologiya, psixologiya, sosial psixologiya kimi fənlərin tədrisində

"Şəxsiyyət və müasirlik", "Ailədə müasirlik və ənənəvilik", "Müasir Azərbaycan ailəsi", "Ailədə şəxsiyyətlərarası münasibətlərin düzgün qurulması", "Müasir dövrdə KİV-nin ailədaxili münasibətlərə təsiri" və s. bu tipli mövzuların proqrama salınması zəmanəmizin tələbidir. Orta təhsil müəssissələrində valideyn – məktəb qarşılıqlı əməkdaşılığı ilə bağlı proqramların işlənib hazırlanması bu məsələnin həllində uğurlu addım hesab oluna bilər.

17. Uşaqlarını erkən yaşda məktəbdən uzaqlaşdıraraq müxtəlif işlərdə işləməyə və ya nikaha məcbur edən valideynlər haqqında sərt tədbirlər (hüquqi baxımdan məsuliyyətə cəlb edərək əlavə cəza növlərinin tətbiqi (islah işləri və s.) və ya mövcud cəzaların daha sərtləşdirilməsi, ictimai qınaq və s.) görülməli, həmçinin geniş maarifləndirmə işləri aparılmalıdır.

***Dissertasiyanın mövzusuna aid müəllifin dərc edilmiş elmi əsərlərinin siyahısı:***

1. Müasir Azərbaycan ailəsinin sosial institut kimi inkişaf potensialı. Psixologiya jurnalı. Bakı -2018 №4 s. 37 – 42
2. Müasir Azərbaycan ailəsində yaranan ziddiyyətlərin subyektiv yönümlü motivləri. Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi Əsərlər junalı. Bakı - 2020. Cild 87, №2 s. 60 – 64
3. Ailədaxili ziddiyyətlər nəticəsində yaranan sosial – psixoloji problemlərin aradan qaldırılması yolları və dayanıqlı ailə mühitinin formalaşdırırlması. Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi Əsərlər jurnalı. Bakı – 2020. Cild 87, №3 s. 103 – 107
4. Характерные черты современной Азербайджанской семьи в контексте религиозных ценностей. Науковый часопис, Национального Педагогического Университета им. М.П.Драгоманова. Серия 5 “Педагогические науки”. Киев – 2020. Выпуск 73, том 1. с. 53 – 57
5. Müasir cəmiyyətdə virtual düşüncənin ailənin sosial – psixo-loji mühitinə təsiri. Psixologiya jurnalı. Bakı – 2020. №2. s. 71 – 78
6. Ailə - sosial institut konsepsiyasının metodoloji əsasları. Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi Əsərlər jurnalı. Bakı – 2020. Cild 87, № 5. s. 150 – 154
7. Ailənin sosial institut kimi müasir cəmiyyətdə rolu və əhəmiy-yəti. Psixologiya zirvəsi: problemlər, perspektivlər və yeni ya-naş-malar” beynəlxalq konfransı materialları, Bakı – 2019. s. 88 – 91
8. The role and importance of family culture in formation of per-so-nality”. “Обраование и наука в меняющемся мире: проблемы и перспективы развития”. Материалы международной научной конференции. Днепр – 2020. с. 305 – 306

9. Müasir Azərbaycan ailəsində milli adət - ənənələrin təbliği. 3 Uluslararası Nevruz kültür ve medeniyet kongresi materialları. Bakı – 2020. s. 488 – 493

Dissertasiyanın müdafiəsi 6 noyabr 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Akademik Zahid Xəlilov küçəsi, 33, e-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları http://bsu.edu.az/ rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 4 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.09.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 37759 işarə

Tiraj: 100 nüsxə